http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 02 (1620) 30 yanvar 2016 - cı il Qiyməti 50 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev ölkə gənclərinin bir qrupu ilə görüşüb



**Yanvarın 29-da Prezident İlham Əliyev Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşüb.**

**Görüşdə geniş nitq söyləyən dövlətimizin başçısı cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayan gənclərin fəaliyyətini yüksək qiymətləndirib:** *"Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq. Hətta sovet dövründə dilimizi, adət-ənələrimizi, bayramlarımızı qorumuşuq. Yadımdadır, Moskvada oxuyanda Novruz bayramında bufetə şəkərbura, paxlava, səməni gətirəndə məni orada tənqid edir, tənbeh edirdilər ki, Əliyev burada dini bayramı qeyd edir. Yəni, o da olub. Amma qorumuşuq və müdafiə etmişik. Baxmayaraq ki, Novruz bayramı dini bayram deyil, indiki şəraitdə əlbəttə, biz onu qorumalıyıq. Çünki indi başqa risklər, başqa çağırışlar var - qloballaşma, digər kənar təsirlər. Bəzi xarici dairələr gənclər arasında iş aparırlar və aydındır ki, bunun məqsədi nədir. Məqsəd özləri üçün dayaq yaratmaqdır. O dayaq ki, nə vaxtsa işə salına bilər. Amma gənclər milli ruhda böyüyəndə əlbəttə ki, xarici təsirin heç bir əhəmiyyəti olmayacaq. Ona görə vətənpərvərliyi, milli dəyərləri, ənənələri qorumalıyıq və biz qoruyuruq. Əsas budur. Bugünkü Azərbaycan iqtidarı bu sahəyə çox böyük diqqət göstərir. Elə etməliyik ki, bu, davamlı olsun. Bizdən sonra hakimiyyətə gələn nəsil də bu amalla yaşasın - dövlətçilik, milli maraqlar, azərbaycançılıq, ləyaqət və güclü dövlət".*

## BU SAYIMIZDA





Tibb Universitetinin ictimaiyyəti "20 yanvar" şəhidlərini yad etdi 3

Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələr üzrə prorektorluğunun 2014-2015-ci tədris ilində gördüyü işlər və kollektiv qarşısında duran vəzifələr müzakirə olundu



2, 5

İbadulla AĞAYEV: "ƏHALİNİN "DONUZ QRİPİ" İLƏ BAĞLI NARAHATÇILIĞINA HEÇ BİR ƏSAS YOXDUR" 6

Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında satellit simpozium keçirilib 5



İMTAHANLAR HEÇ BİR PROBLEM QEYDƏ ALINMADAN BAŞA ÇATDI

4

Daha bir körpənin həyatını Azərbaycan həkimləri xilas etdi

# BÖYÜK ELMİ ŞURADA

**Böyük Elmi Şuranın yanvarın 25-də keçirilən növbəti yığıncağını universitetin rektor əvəzi, tədris işləri üzrə prorektor, professor Sabir Əliyev açaraq əvvəlcə müalicə-profilaktika fakültəsinin uşaq xəstəlikləri kafedrasının professoru Nəsibə xanım Hüseynovanı 90, neonatologiya kafedrasının müdiri, professor Səfixan Həsənovu və ağız, üz-çənə kafedrasının müdiri, professor Çingiz Rəhimovu 60 illik yubileyləri münasibətilə təbrik etdi. Yubilyarlara universitetin “Fəxri fərmanı” təqdim olundu. Bundan sonra gündəlikdə duran məsələləri diqqətə çatdıran professor Sabir Əliyev “Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələr üzrə prorektorluğunun 2014-2015-ci tədris ilində gördüyü işlər və kollektiv qarşısında duran vəzifələr” barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü beynəlxalq əlaqələr üzrə prorektor, dosent Rəhimə Qabulovaya verdi.**



Beynəlxalq əməkdaşlığın Azərbaycan Tibb Universitetinin fəaliyyətində priori-



tet sahələrdən olduğunu vurğulayan məruzəçi universitetin bu istiqamətdə fəaliyyətə Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra başladığını dedi. Bildirdi ki, ölkəmizdə təhsilin beynəlxalq standartlara uyğun, yeni istiqamətdə inkişafını və əsaslı şəkildə təkmilləşdirilməsini təmin edən dövlət qanunları, proqramları və sərəncamların imzalanması ilə daha da genişləndirilmiş və inkişaf etdirilmişdir.

Azərbaycan Tibb Universitetinin dünyanın qabaqcıl ölkələrinin aparıcı təhsil və elm mərkəzləri ilə əməkdaşlığına, müxtəlif assosiasiya və qurumlarda təmsilçiliyinə də toxunan R.Qabulova qeyd etdi ki, ATU hazırda Avropa İttifaqının TEMPUS, ERASMUS MUNDUS, ERASMUS Plus və Türkiyə Cumhuriyyətinin MEVLANA mübadilə proqramlarının iştirakçısıdır.

R.Qabulova hazırkı dövrə qədər Avropa İttifaqının mailiyyələşdirdiyi TEMPUS proqramının 7 layihəsinin iştirakçısı olaraq hesabat dövründə 5 layihəni uğurla həyata keçirən Azərbaycan Tibb Universitetinin 2012-ci ildən etibarən MEVLANA mübadilə proqramı üzrə Türkiyənin 15 universiteti ilə müqavilə imzaladığını söylədi: “Proqram çərçivəsində 2014-2015-ci tədris ili ərzində Türkiyənin 5 universitetindən 8 professor təcrübə mübadiləsi məqsədilə 1-2 həftə müddətində ATU-da səfərdə olub. MEVLANA mübadilə proqramı ilə 13 rezidentimiz Türkiyənin Erciyes və İnönü universitetlərində rotasiya keçiblər”.

Məruzəçi ABŞ-ın Milli Səhiyyə İnstitutu Foqarti Beynəlxalq Mərkəzinin maliyyələşdirdiyi, 2014-2019-cu illəri əhatə edən Qlobal Psixi Sağlamlıq və İnkişaf pozulmaları üzrə tədqiqatçı yetşdirmə proqramı haqqında ətraflı məlumat verərək qeyd etdi ki, ATU-nun Psixiatriya kafedrası, Harvard Tibb Məktəbi və Boston Uşaq Xəstəxanası, habelə Ankara və Hacettepe Universitetlərinin Psixiatriya, Pediatriya və Uşaq Psixiatriyası kafedralarının əməkdaşlarının iştirak etdiyi proqram pediatriya, psixiatriya, uşaq nevrologiyası mövzusunda birgə konfransların, seminarların təşkilini,



azərbaycanlı mütəxəssislərin ABŞ-da uzunmüddətli təlim və ixtisaslaşma kurslarında iştirakını nəzərdə tutur.

R.Qabulova dünyanın 33 ölkəsindən olan 135 universitet, səhiyyə ocağı, elmi-tədqiqat mərkəzi, tədqiqat institutu ilə müxtəlif layihələr və müqavilələr çərçivəsində əməkdaşlıq edən ATU-nun hesabat dövründə 25 universitet, 5 müəssisə ilə müqavilə imzaladığını, 2011-2015-ci illərdə universitetimizin qonağı olan dünya miqyasında tanınmış alimlərlərdən bəzilərinə ATU-nun Elmi Şurasının qərarı ilə fəxri adların verildiyini bildirdi.

Universitet əməkdaşlarının müntəzəm olaraq müxtəlif xarici ölkələrdə keçirilən elmi konfrans, simpozium və seminarlarda iştirak etdiyini, qabaqcıl klinikalarda təcrübə keçdiyini söyləyən R.Qabulova son illərdə xarici səfərlərin sayının artmasını müsbət hal kimi dəyərləndirdi: “2010-2015-ci illərdə universitet əməkdaşlarının 46 ölkəyə 748 səfəri olmuşdur. Bu səfərlərin 261-i (34,9%) 2014-2015-ci illərin payına düşür.

Ümumiyyətlə, uzun illərdir ki, universitetimizin Türkiyə universitetləri, klinikaları, uzmanlıq dərnəkləri ilə sıx əlaqələri mövcuddur. Əməkdaşlarımızın xarici universitet və klinikalarla təcrübi təbabət sahəsində mübadiləsi əsasən ikitərəfli əməkdaşlıq müqavilələri çərçivəsində həyata keçirilir.

Son illərdə Türkiyə universitetlərində müqavilələr çərçivəsində təcrübə mübadiləsində iştirak etmiş ATU əməkdaşlarının sayı getdikcə artmaqdadır. Bu rəqəm 2011-ci ildə 9, 2012-ci ildə 6, 2013-cü ildə 9, 2014-cü ildə 10, 2015-ci ildə 19 nəfər təşkil etmişdir”.

Sözünə davam edən natiq universitetimizin əcnəbi tələbələr üçün cəlbedici olması, rezidentura pilləsində təhsil alan gənc həkimlərimizin xaricdə rotasiyalarının təşkili istiqamətində təhsil ocağının rəhbərliyi və əlaqədar strukturlarının müvafiq tədbirlər gördüyünü diqqətə çatdırdı.

“Universitetimizin beynəlxalq əlaqələr sahəsində prioritet istiqamətlərdən biri, bəlkə də ən mühümü beynəlxalq ali təhsil məkanındakı imicimizin yüksəldilməsi və Azərbaycan Tibb Universitetinin dünya universitetlərinin reytinq siyahılarına daxil edilməsidir” - deyən R.Qabulova bunun üçün lazımı addımların atıldığını vurğuladı.

Universitetimizdəki əcnəbilərin statistikasını da açıqlayan prorektor bildirdi ki, 2014-2015-ci tədris ilinin əvvəlindən 16 ölkədən gələn 945 nəfərdən 737-si tələbə, 174-ü (19-u YÖK xətti ilə) hazırlıq şöbəsində, 23-ü ixtisasartırma kurslarında dinləyici, 7-si rezident, 4-ü isə doktorantdır.

Bu tələbələrdən 6 nəfəri (İordaniya vətəndaşı) dövlət xətti ilə, 96 nəfəri isə Türkiyə Cümhuriyyəti Seçmə və Yerləşdirmə Mərkəzi (YÖK) yolu ilə təhsilini davam etdirir.

2014-2015-ci tədris ilində universitetimizi başa vuran 150 məzundan 119 nəfəri diplom alsa da, 31 nəfərinin kredit borcu qalıb.

YÖK yolu ilə 13 nəfər Türkiyə Cümhuriyyəti vətəndaşı III kursdan sonra öz ölkələrinin müvafiq universitetlərinə köçürülüb. Dekanlığın Facebook səhifəsini yaradan xarici tələbələr dekanlığı mütamadi olaraq məzunlarla əlaqə saxlayıb. Onların verdiyi məlumata görə, 2014-2015-ci ilin məzunlarının 80 faizi öz ölkələrində imtahan verərək diplomlarını tanıdıblar.

Universitetimizə daha çox əcnəbi tələbənin cəlb edilməsi istiqamətində intensiv işlər aparıldığını şura üzvlərinin diqqətinə çatdıran R.Qabulova, bu məqsədlə 2015-ci ilin yay aylarında Azərbaycan Tibb Universitetinin xarici tələbələrlə iş üzrə dekanı, dosent İsmayıl Əfəndiyevin Hindistan və İordaniyanın böyük şəhərlərində abituriyentlər üçün seminarlarda iştirak etdiyini söylədi: “Bunun nətəcəsidir ki, 2015-2016-cı tədris ili ücun universitetimizə çoxlu sayda əcnəbi vətəndaş müraciət etmişdir. Onu da qeyd etmək lazımdi ki, bu il universitetimizə Liviya, Hindistan, Nigeriya, Əlcəzair kimi ölkələrdən də tələbələr qəbul olunmuşlar. Bu da onu göstərir ki, ildənilə universitetimizə maraq artir və müraciət edən ölkələr sırasına yeni-yeni ölkələr əlavə olunur”.

Hər dərs ilinin əvvəlində tələbələrin öz ölkələrinə gediş-gəlişini və Bakı şəhərində müvəqqəti yaşamaq hüququnu təmin etmək üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə sıx əlaqə saxlanıldığını bildirən prorektor bu il ilk dəfə olaraq əcnəbi tələbələrimizin Miqrasiya Xidməti üçün tibbi müayinəsini sadələşdirmək məqsədilə zəruri prosedurun universitetimizin Tədris Terapevtik Klinikasında təşkil olunduğunu vurğuladı.

*(davamı səh. 5-də)*

# Tibb Universitetinin ictimaiyyəti “20 yanvar” şəhidlərini yad etdi

**Azərbaycanda baş verən Qanlı Yanvar faciəsindən 26 il ötür. Bu müddət ərzində şəhid məzarları zamanın qan yaddaşına köçür, xalqımızın and yerinə çevrilərək ehtiramla yad olunur.**

Yanvarın 18-də Respublikamızın hər yerində olduğu kimi Azərbaycan Tibb Universitetində də 20 yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Toplantı iştirakçıları ilk öncə universitet şəhərciyində torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhid tələbələrin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə tər çiçəklər düzdülər.

Sonra ATU-nun rektor əvəzi, tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev 20 Yanvar hadisələrinin dəhşətlərindən söhbət açaraq həmin gün qəhrəman Azərbaycan xalqının igid övladlarının göstərdiyi şücaətlərdən



danışıb. O, qeyd edib ki, Azərbaycan xalqı öz müstəqilliyini asan yolla qazanmayıb, bu yol xalqımıza çətinliklər və faciələr hesabına başa gəlib. S.Əliyev xalqımızın ötən əsrin əvvəllərində, 1918-ci ildə də böyük bir soyqırımla üzləşdiyini xatırlatdı: “Cümhuriyyət dövründə bu soyqırım haqda dəqiq dəlillər təqdim olunsa da, Avropa və dünya buna laqeyd yanaşdı. Bundan sonra da Azərbaycan xalqı repressiya və deportasiyalarla üz-üzə qalıb. Və nəhayət sovetlər dönəminin dağılması ərəfəsində ermənilər Qarabağ problemini yaratdılar”.

Sözünə davam edən S.Əliyev ötən əsrin 90-cı ilində ölkəmizin müstəqilliyi, azadlığı uğrunda küçələrə çıxmış vətəndaşlarımıza qarşı insanlığa sığmayan vəhşiliklərin törədildiyini, əliyalın insanlara ağır silahlardan atəş açıldığını, hətta qocalara, qadınlara, uşaqlara belə rəhm edilmədiyini xatırladıb. O, 20 Yanvar hadisələri ərəfəsində Bakıda və Sumqayıtda yaşanan təxribatlardan, Azərbaycanı ələ keçirmək üçün hazırlanan məkirli planlardan söhbət açıb: “Yanvarın 19-da axşam Azərbaycana böyük ordu ilə hücum olundu. Əvvəlcədən bilirdilər ki, azərbaycanlılar müqavimət göstərəcək və qırğın olacaq, ona görə də təcili yar-





dım maşınları da çox idi. O dəhşətli gecədə bütün səma atəş, güllə ilə dolu idi. Sovet ordusu əliyalın xalqın üstünə getdi. Dünyada çox az xalq olar ki, onun üzərinə ordu gəldiyini bildiyi halda, onların qabağına əliyalın çıxsınlar. Azərbaycan xalqı məhz belə bir addım atdı və müstəqillik uğrunda şəhidlərini verdi”. S.Əliyev tarixə ekskurs edərək həmin dövrdə sovet mediasının 20 yanvarla bağlı yalnış məlumatlar yaydığını, əsil həqiqətin isə gizlədildiyini, çox az sayda itkilərin olduğu haqda məlumatlar verdiyini dedi. O, bildirdi ki, bu hadisələrindən dərhal sonra xalqımızın dahi oğlu, ümummilli lider Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq öz ailəsi ilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi və heç nədən çəkinmədən kəskin bəyanatla çıxış edərək əsl günahkarların cəzalandırılmasını tələb etdi.

Həmin mətbuat konfransından sonra dünyanın nüfuzlu xəbər agentlikləri bu faciə haqqında verdiyi düzgün və qərəzsiz informasiyalar bütün dünyaya çatdırıldı.

Sonra ATU-nun travmatologiya və ortopediya kafedrasının müdiri, professor Əhməd Əhmədzadə çıxış edərək qanlı Yanvar olaylarının şahidi kimi həmin gecəni xatırladı: “Yanvarın 10-dan etibarən şəhərdə böyük təxribatlar gedirdi. Bizi çağırıb dedilər ki, şəhərdə böyük qırğın gözlənilir, bütün xəstələri evə yazın, xəstəxananı boşaldın. Haradansa təzə yataq dəstləri gətirib xəstəxanaya düzdülər. Elə bil hamı nəsə gözləyirdi. Və belə də oldu. 19-u gecə heç bir xəbərdarlıq olmadan Bakının hər tərəfindən şəhərə qoşunlar yeridildi. İnsanları qıra-qıra şəhərə girdilər. Xəstəxana yaralılarla dolub daşırdı, hətta dəhlizlər də xəstələrlə doluydu”.

Əhməd Əhmədzadə çıxışında vurğuladı ki, həmin gecə daha bir təxribat da yaşanıb - bütün şəhərdə işıqları söndürüblər: “Biz xəstələrə yardım edə bilmirdik. Belə olanda bizim yataqxanada qalan gənc tələbələr qəzet yandırıb bizim üçün işıq salırdılar ki, xəstələrə yardım edə bilək və xəstələr qanaxmadan ölməsin. Səhər tezdən gördük ki, silahlı hərbçilər bütün xəstəxananın ətrafını



əhatəyə alıb və onlara 3-4 metr yaxınlaşanların hamısını öldürürdülər. Orada 39 meyidi elə mən özüm saydım. Səhər valideynlər gəlib öz uşaqlarının meyidini tapanda, onların yaşadıqlarını demək mümkün deyil”. Ə.Əhmədzadə qazandığımız müstəqilliyimizə görə məhz həmin şəhidlərə borclu olduğumuzu qeyd etdi.

Daha sonra ATU-nun I cərrahi xəstəliklər kafedrasının dosenti Eldar Əliyev də 20 yanvar hadisələrinin canlı şahidi kimi həmin gecə yaşanan dəhşətlərdən söz açdı. O, 20 Yanvarın azərbaycanlılar üçün həm xilas, həm də eyni zamanda matəm günü olduğunu bildirib: “Yaddaşlarımızdan heç vaxt silinməyəcək bu gecədə verdiyimiz şəhidlər Azərbaycan tarixində növbəti qəhrəmanlıq səhifəsini yazmış oldular. Şəhidlərimiz azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaq”.

20 Yanvar faciəsi zamanı sağlamlığını itirən II qrup əlilin oğlu, hazırda ATU-nun müalicə profilaktika fakültəsinin II kurs tələbəsi Nicat Rzayev isə çıxışında atasının hadisələrdə əlili olduğunu və onunla daim fəxr etdiyini, dövlət tərəfindən şəhid və əlil ailələrinə göstərilən diqqət və qayğıdan bəhs etdi.

Toplantını yekunlaşdıran professor S.Əliyev Azərbaycanın hər bir övladının bu hadisə haqqında saatlarla danışa biləcəyini qeyd edərək bir daha xatırlatdı ki, həmin gün xalqımız öz qəhrəman övladlarını itirsə də qazandığı azad, müstəqil Azərbaycan dövləti oldu. O, bu qanlı gecədə qətlə yetirilən günahsız insanların xatirəsini qədirbilən xalqımızın daim əziz tutduğunu, eyni zamanda öz ölkəsinin və millətinin azadlığı yolunda şəhid olanlarla qürur duyduğunu söylədi.

* * *

Hər il 20 Yanvar hadisələrinin 26-cı ildönümünü ərəfəsində on minlərlə insan Şəhidlər Xiyabanını ziyarət edir.

Azərbaycan Tibb Universitetinin rəhbərliyi, professor-müəllim heyətinin üzvləri Şəhidlər xiyabanını ziyarət edərək həmin gecədə həlak olan şəhidlərimizin məzarları üstünə gül dəstələri düzüblər.

**Allah rəhmət eləsin!**

**MƏNSUR**

## İYİRMİ YANVAR GÜNÜ

*20 Yanvar faciəsinə ithaf olunur.*

Gərək nəğmə
bəstələyəm,
Gərək dastanlar
qoşam.
Car eyləyəm dünyaya,
Eşidib bilsin bəşər.
Yetmiş illik əsarət,
Qorxu, əzab, həqarət
Axır ki sona çatdı.
Bu dəfə də uduzdu,
Bu dəfə də xeyirə şər.
Hər ana fəryadında
Azadlıq bayram edir.
Hər bacı göz yaşında
Gedənlər bu millətə
Azadlıq qoyub gedir.
Ağlamasın analar,
Sızlamasın qaboy, tar.
Qafqazın qucağında,
Zərdüştlər ocağında
Bu gün qeyrət,
ar günü.
Köləliyi dəf edib
İmza atdı qərənfil
Tarixin sinəsinə
İyirmi yanvar günü!

**Elnur İRƏVANLI**

# İMTAHANLAR HEÇ BİR PROBLEM QEYDƏ ALINMADAN BAŞA ÇATDI

**Ötən il dekabrın 29-dan etibarən Azərbaycan Tibb Universitetində start verilən qış semestr imtahanları bu il fevralın 1-də başa çatır.**





İmtahanın nəticələri ilə bağlı Virtual Test Mərkəzinin direktoru Şahin Bayramovdan “Təbib” qəzeti üçün münasibət öyrəndik. Onun bildirdiyinə görə, imtahan başlayandan 40 mindən çox imtahan keçirilib.

İmtahanların gedişi zamanı hər hansı qeyri-adi hadisənin baş vermədiyini diqqətə çatdıran mərkəzin direktoru tələbələr tərəfindən heç bir şikayət və narazılığın olmadığını qeyd edib: “İmtahanlar çox rahat və normal keçdi. Heç bir texniki problemimiz olmadı. Hər gün imtahanların gedişinə universitet rəhbərliyi tərəfindən ciddi nəzarət olunub. Universitetin rektor əvəzi, tədris işləri üzrə prorektor, professor Sabir Əliyev, tədris hissə müdiri, dosent Nəsimi Qasımov hər gün imtahan zallarında olub, müəllim və tələbələrlə görüşüb, onlarla ünsiyyətdə olaraq imtahan prosesi ilə maraqlanıblar.”

İmtahan prosesindən rəhbərliyin razı qaldığını bildirən Şahin müəllim tələbələrin 99 faizdən çoxunun müvəffəqiyyət qazandığını, 17 baldan yuxarı nəticələr əldə etdiyini də qeyd edib. Əcnəbi tələbələrin də böyük əksəriyyətinin uğur qazandığını diqqətimizə çatdıran direktor imtahanların gedişi prosesini normal dəyərləndirərək tələbələrin bilik səviyyəsinin yüksək olduğunu bildirib.

# Daha bir körpənin həyatını Azərbaycan həkimləri xilas etdi

- **Hamiləliyini sonlandırmaq məqsədi ilə gələn ümidsiz ana körpəsini sağ-salamat qucağına aldı. Uşaq ana bətnində olarkən böyrək əməliyyatından keçdi, dünyaya gəldikdən sonra isə sidik kisəsindən əməliyyat olunaraq xilas edildi. 14 oktyabr 2015-ci il tarixində Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının mama-ginekologiya şöbəsinə 26 həftəlik hamiləliyi sonlandırmaq məqsədi ilə ümidsiz halda hamilə qadın daxil olmuşdur. Belə ki, daha əvvəl ultrasəs müayinələrindən dölün sol böyrəyindən inkişaf edən iri ölçülü kista aşkar edilmişdir. Bu kista, getdikcə böyüyərək bütün qarın boşluğunu tamamilə tutmuşdur.**




Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Mama-Ginekologiya şöbəsinə müraciət edən hamilə



xanımı müayinə edən şöbə müdiri, uzman Turab Canbaxışovun sözlərinə görə pasient klinikaya müraciət edən zaman ultrasəs müayinəsində döldə sol böyrək kistasının ölçüsü 88,7 mm-ə çatmışdı: “Belə ki, dölün öz bədən uzunluğu 221 mm idi. Dölün sol böyrək kistası həm qarın boşluğundakı orqanları, həm də döş qəfəsindəki ağciyər və ürəyi sıxışdıraraq, ürək fəaliyyətini zəiflətmişdi. Ultrasəs müayinəsində dölün ana bətnində ürək çatışmazlığından dərialtı ödem izlənilirdi və ağ ciyərlərin, ürəyin ətrafında maye yığılmağa başlamışdı. Təcili müdaxilə etməsəydik, uşaq tələf ola bilərdi. Bu səbəbdən, dölün sol böyrək kistasına təcili müdaxilə etdik, tək bir seansla təxminən 235 ml sidik (maye) çəkildi. Kistanın ölçüsü 90 mm-dən 21,8 mm-ə qədər kiçilmişdi və artıq dölün həyatı üçün təhlükə törətmirdi. Ürək, ağciyərlər və qarın boşluğundakı orqanların fəaliyyətləri bərpa olmuşdu. Hamilə xanım hər iki həftədən bir müayinələrə gələrkən kistanın ölçüsü qeyd olunurdu və kistanın həcmi böyümədiyi üçün müdaxiləyə ehtiyac olmadı.”

Hamiləliyin 40-cı həftəsində mama-ginekologiya kafedrasının dosenti Şölə İsmayılova tərəfindən anaya keysəriyyə əməliyyatı aparıldı və döl sağlam şəkildə dünyaya gəldi. Əməliyyat fəsadsız keçdi, lakin sol böyrək kistası hələ döl 26 həftəsindəykən çox böyük ölçülərə çatdığı üçün göbək dəliyinin tam sağalmamasına səbəb olmuşdu. Ana bətnində müdaxilə edilməsinə baxmayaraq, sidik kisəsi ilə göbək dəliyinin arasında olan axacaq tam qapanmamışdı. Nəticədə uşaq müştərək qüsurla – perforasiya olunmuş embrional göbək dəliyi, sidik kisəsi və göbək dəliyi arası fistulası ilə doğulmuşdu. Neonatologiya şöbəsinin müdiri, Səadət Yaqubovanın sözlərinə görə, belə uşaqlarda infeksiyalaşma riski çox yüksəkdir. Bu riski nəzərə alaraq, uşaq cərrahiyyəsi şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Ramiz Poluxovla konsilium aparılaraq təcili əməliyyata qərar verildi. Uşaq neonatoloji reanimasiyada əməliyyata hazırlandı və əməliyyata götürüldü. Əməliyyatda həm embrional yırtıq ləğv olundu, həm də sidik kisəsi ilə göbək dəliyi arasında olan həddindən artıq geniş fistula ayrılaraq tikildi. Əməliyyat uğurla başa çatdı. Əməliyyatda iştirak edən böyük briqadanın operativliyi və profesionallığı nəticəsində bütün risklərin qarşısı alındı və hər bir lazımi neonatoji tədbirlər görüldü.

**ATU-nun mətbuat xidməti**

# Dünya Xərçənglə Mübarizə Günü ilə bağlı silsilə tədbirlər keçirilir

Hər il olduğu kimi, Milli Onkologiya Mərkəzi tərəfindən 4 fevral – Dünya Xərçənglə Mübarizə Günü ilə bağlı çoxsaylı maarifləndirmə tədbirləri həyata keçirilir.




Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, fevralın 4-dək Bakıda və ölkənin digər yerlərində xərçəng xəstəlikləri, onların profilaktikası, diaqnostikası və müalicəsi sahəsində əhalinin məlumatlılığının artırılması məqsədi ilə bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Həmin müddət ərzində müxtəlif ticarət və əyləncə mərkəzlərində, tibbi müəssisələrində Azərbaycanda geniş yayılmış xərçəng xəstəliklərinə dair vətəndaşlara faydalı məlumatlar veriləcək, bukletlər paylanacaqdır. Bakının iri ticarət mərkəzlərində isə təcrübəli onkoloqlar tərəfindən vətəndaşların onkoloji xəstəliklərə dair bütün sualları cavablandırılacaq, sağlamlıqlarını qorumaq üçün müvafiq faydalı tövsiyələr veriləcəkdir.

Qeyd edək ki, Dünya Xərçənglə Mübarizə Günü 2005-ci ildə Xərçəng Əleyhinə Beynəlxalq İttifaq tərəfindən təsis edilib. Əsas məqsəd dünya ölkələrinin diqqətini bu qlobal problemə yönəltmək, onun nə dərəcədə təhlükəli olduğunu və mübarizənin yalnız birlikdə aparıldıqda effektiv olmasını bir daha dünya ictimaiyyətinə xatırlatmaqdır.

# Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında satellit simpozium keçirilib

**26-27 Yanvar 2016-cı il tarixlərində Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında Amerika-Avstriya Fondunun Reabilitasiya üzrə Zaltsburq seminarlarının növbəti satellit simpoziumu keçirilib.**

ABŞ-ın Kolumbiya Universitetinin əməkdaşı, İdman və reabilitasiya üzrə mütəxəssis Dr. Maykl Seyn "Bel ağrıları", "Çiyində ağrı", "Bel ağrılarında steroid inyeksiyaları", "Lumbar faset oynaqların artropatiyasında invaziv müalicə üsulları" mövzularında mühazirələrlə geniş auditoriya qarşısında çıxış edib.

ATU-nun Beynəlxalq əlaqələr ofisinin təşkilatçılığı ilə gerçəkləşdirilən və 2 gün davam edən seminarda ATU-nun Fizioterapiya və İdman təbabəti kafedrasının, Tədris Cərrahiyyə Klinikasının Reabilitasiya şöbəsinin, Bakı şəhərində yerləşən müxtəlif klinikaların əməkdaşları və rezidentləri




iştirak ediblər.

Seminarın birinci günü ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov Maykl Seynlə görüşüb, onu klinika ilə tanış edib. N.Bayramov bu mövzuda seminarın təşkil olunmasını təqdirəlayiq hadisə kimi qiymətləndirib.

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova AAF Saltsburq seminarları haqda məlumat verərək, gənc həkimləri bu seminarlarda aktiv iştirak etməyə çağırıb. M.Seyni auditoriyaya təqdim edən prorektor, hazırki simpoziumun ATU-da keçirilən sayca üçüncü tədbir olduğunu xatırladıb.

Seminarda ATU-nun Fizioterapiya və İdman təbabəti kafedrasının müdiri, professor Əlişir Musayev, Neyrocərrahiyyə kafedrasının müdiri, professor Sabir Etibarlı, Travmatologiya və ortopediya kafedrasının müdiri, uzman Cəfər Nəsirli, reanimatoloq-alqoloq Vüqar Əbdülkərimov, rezident Müjgan Onk çıxış ediblər. Mühazirələr və çıxışlar ətrafında geniş diskussiyalar aparılıb.



Tədbirin sonunda prorektor R.Qabulova auditoriya adından M.Seynə Bakıya səfər etdiyi üçün təşəkkürünü bildirib, ona xatirə hədiyyələrini təqdim edib. O, həmçinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Nadir Zeynalova, ATU-nun TCK-nın Reabilitasiya şöbəsinin müdiri Nurlana Əliyevaya, rezident həkimlər Mujgan Onk və Aytən Musayevaya simpoziumun təşkilində aktiv iştiraklarına görə xüsusi təşəkkür edib.

**ATU-nun mətbuat xidməti**

(əvvəli səh. 2-də)

# BÖYÜK ELMİ ŞURADA

Dərsə davamiyyəti qənaətbəxş olmayan tələbələrin problemlərinin müvafiq dekanlıqlar və kafedra müdirləri ilə mütəmadi olaraq müzakirə edildiyini, xarici tələbələr dekanlığının bu barədə Türkiyə, İran, İraq, Fələstin, Sudan və s. ölkələrin səfirlikləri və səfirliklərin nümayəndələri ilə görüşlərdə onlara şifahi və yazılı olaraq məlumatlar verdiyini deyən R.Qabulova, kollektiv qarşısında duran vəzifələr üzərində xüsusi dayandı. Qeyd etdi ki, "xarici ölkə səfirlikləri, nümayəndəlikləri, universitetləri, hökümət və qeyri-hökümət təşkilatları ilə əməkdaşlığı genişləndirmək, daha çox əcnəbi tələbənin təhsil ocağına cəlb olunması məqsədilə ATU-nun beynəlxalq miqyasda geniş təşviqat kampaniyasını aparmaq əsas hədəflərimizdən biridir". Eyni zamanda beynəlxalq qrant layihələrində, mübadilə proqramlarında universitetin müəllim və tələbə heyətinin daha aktiv iştirakını təmin etməyin vacibliyini önə çəkən prorektor universitetdə təhsil alan xarici vətəndaşların təlim-tərbiyə işlərini gücləndirmək, mövcud Əsasnamə və Qaydaların icrasına nəzarət etməyin də qarşıda duran əsas vəzifələrdən olduğunu dedi.

Müvafiq dekanlıqlar və kafedralar ilə bərabər xarici dili bilən kafedra əməkdaşlarından ibarət "Beynəlxalq əlaqələr şəbəkəsi"nin yaradılacağını söyləyən prorektor, ingilis dilində dərs deyən müəllimlərin dil biliklərinin təkmilləşdirilməsi və universitetin Əsaslı kitabxanasının tədris üçün zəruri olan ingilisdilli dərsliklər və dərs vəsaitləri ilə təmin olunmasının vacibliyini vurğuladı.

İxtisasartırma, magistratura, rezidentura və doktorantura pillələrində təhsil alan əcnəbi vətəndaşlara universitetin müvafiq klinika və bazalarında maksimum şərait yaratmaq, xarici tələbələrin yaşadıqları yataqxanalarda oxu zalı və internet şəbəkəsinin yaradılması, tələbələrin asudə vaxtının səmərəli təşkili də universitet kollektivi qarşısında duran mühüm vəzifələrdəndir.





Məruzə ətrafında çıxış edən Tədris Terapevtik Klinikanın direktoru, professor Surxay Musayev, Tədris Cərrahiyyə Klinikanın direktoru, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov, psixiatriya kafedrasının müdiri, professor Gəray Gəraybəyli, tədris-metodik innovasiyalar şöbəsinin müdiri, professor Akif Qurbanov və xarici tələbələrlə iş üzrə dekan, dosent İsmayıl Əfəndiyev hesabatı qənaətbəxş qiymətləndirərək universitetin xarici əlaqələri ilə bağlı fikirlərini söylədilər, mövcud problemlərdən danışaraq təkliflərini irəli sürdülər.

Müzakirələrə yekun vuran professor S.Əliyev diqqəti ingilis bölümündə təhsil alan əcnəbi tələbələrin problemlərinə yönəldərək, onların xarici dildə mühazirə materiallarına, kitablara, dərs vəsaitlərinə ehtiyac duyduqlarını vurğuladı: "Bu da həqiqətdir. Ancaq bir reallıq da var. Hər bir kafedra 3 dildə mühazirənin mətnini hazırlamalı, həmin mühazirələr lazım gəldikdə cildlənib tələbələrə paylanmalıdır. Buna nəzarət də xarici tələbələrin dekanlığı, beynəlxalq prorektorluq və müvafiq dekanlıqlar tərəfindən aparılmalıdır. Çox təəssüf ki, bu işlərimiz hələ qaydasında deyil. Ona görə də bu məsələ üzərində hər bir kafedra düşünməlidir".

Xarici tələbələrlə işləyən müəllimlərin seçimi zamanı diqqətli olmağı tövsiyə edən S.Əliyev bildirdi ki, seçilən müəllimlərin bütün cəhətləri – intellektual səviyyəsi, mədəniyyəti, davranışı, savadı və dil bilikləri nəzərə alınmalıdır. Artıq 10 ildən çoxdur ki, bu məsələ üzərində işləyirik. Hər bir kafedrada indiyədək ingilis dili bölümü üçün ən azı 6-7 müəllim hazırlanmalıydı. Əgər hazırlanmayıbsa, günah həmin kafedraların özündədir".

Bəzi müəllimlərin xarici tələbələrlə kobud rəftarından təəssüfləndiyini vurğulayan S.Əliyev bu cür halların universitetimizin nüfuzuna xələl gətirdiyini söylədi. O, dünya təhsil sisteminə inteqrasiya etməyin, beynəlxalq aləmdəki yeniliklərin universitetimizə gətirilməsinin vacibliyini önə çəkdi.

Əməkdaşlara universitet tərəfindən verilən əlavə əmək haqqının daxili imkanlar hesabına müəyyən miqdarda artırılmasına razılıq verən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

Bu gün qonşu ölkələrdə də aşkar olunan və “donuz qripi” adlanan H1N1 adlı virus ilk dəfə 1918-ci ildə İspaniyada qeydə alınıb. Təhlükəli hesab olunan bu virusun yayılması nəticəsində o vaxt ölənlərin sayı 40 milyona çatıb. O zaman H1N1 virusu “İspan qripi” kimi məşhur olub və 1958-ci ildə bu qrip yenidən təkrarlanıb. Bu dəfə xəstəlikdən ölənlərin sayı təxminən 2 milyona yaxın olub. İndi isə dünyanın bir sıra ölkələrində yayılan bu virusun ölkəmizə gəlib çıxmasından vətəndaşlar narahatlıq hissi keçirir.

Bəs ölkəmizdə bu virusa yoluxma halı qeydə alınıbmı? Xaricdən ölkəmizə təşrif gətirənlər vasitəsi ilə bu virusun keçmə təhlükəsindən təlaşlanan vətəndaşların narahatçılığına əsas varmı? Bu və digər suallarla bağlı Azərbaycan Səhiyyə Nazirliyinin baş epidemioloqu, Azərbaycan Tibb Universitetinin epidemiolgiya kafedrasının müdiri, professor İbadulla Ağayevə müraciət etdik.



# İbadulla AĞAYEV: “ƏHALİNİN “DONUZ QRİPİ” İLƏ BAĞLI NARAHATÇILIĞINA HEÇ BİR ƏSAS YOXDUR”

“Respublikamızda bu və digər yoluxucu xəstəliklərin yayılması ilə bağlı heç bir təhlükə yoxdur. İndiyədək ölkəmizdə heç kəs H1N1 virusuna yoluxma şübhəsi ilə müayinələrə cəlb olunmayıb”-deyən baş epidemioloq hazırda mövsümü qriplə əlaqədar müayinələrin aparıldığını bildirib.

İbadulla müəllim həmçinin qeyd edib ki, “donuz qripi”nin digər ölkələrdən Azərbaycana keçməsinin qarşısını almaq üçün bütün sərhəd məntəqələrində Səhiyyə Nazirliyinin Sanitar Karantin Müfəttişliyi və Dövlət Gömrük Komitəsi ilə birlikdə nəzarət məntəqələri fəaliyyət göstərir: “Şübhəli şəxslərin hamısı sanitar nəzarətindən keçir. Ehtiyac duyularsa, həmin şəxs anındaca təcrid olunur. Bunun üçün Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda, 1 saylı Kliniki Tibbi Mərkəzdə və 7 saylı Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasında xüsusi palatalar təşkil olunub. Bütün müayinələr isə Respublika Taun Əleyhinə Stansiyada aparılır. Əminliklə deyirəm ki, ölkəmizdə “donuz qripi” ilə əlaqədar tədbirlər görülməsi üçün hər cür şərait var. Əgər hansısa bir hadisə baş verərsə, biz buna tam hazırıq. Ona görə vətəndaşlarımıza da tövsiyə edirəm ki, bu məsələylə bağlı narahat olmasın, həyəcanlanmasınlar”.

Baş epidemioloqun sözlərinə görə, Səhiyyə Nazirliyi tərəfindən nəinki paytaxtda, həmçinin regionlarda belə istər mövsümü, istərsə də mövsümdənkənar lazımi tədbirlər görülür və indən sonra da görüləcəkdir: “ Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin yerlərdə şöbələri fəaliyyət göstərir. Səhiyyə Nazirliyinin xüsusi təlimatlarına əsasən rayonlarda və paytaxtda yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması məqsədilə lazımi tədbirlər görülür. Buna görə də hazırda respublikamızın ərazisində yoluxucu xəstəliklərlə və o cümlədən



“donuz qripi” ilə bağlı heç bir təhlükə, əhalinin narahatçılığına heç bir əsas yoxdur.”

“Donuz qripi” ilə mövsümü qripi fərqləndirən əlamətlərə toxunan baş epidemioloq qeyd edib ki, viruslar bir-birlərindən ağırlıq dərəcəsi ilə fərqlənir: “Hər ikisində eyni əlamətlər mövcudur. Xəstədə 39 dərəcədən yuxarı hərarət, boğazda kəskin ağrı və öskürək, zökəm, baş və əzələ ağrıları, bəzən qusma və ishal müşahidə olunur. Amma hər hansı yoluxucu xəstəliyə yoluxan şəxsə diaqnozun qoyulması yalnız və yalnız laboratoriya şəraitində mümkündür. Diaqnoz təsdiq olunandan sonra, onun harada və necə yoluxması müəyyənləşdirilir. Yəni yoluxma yolları araşdırılır. Amma əsas məsələ ondan ibarətdir ki, müalicəyə qədər hər bir insan özünü bu xəstəlikdən qorumalı, gigiyenik qaydalara riayət etməlidir”-deyən İbadulla müəllim “donuz qrpi”nə yoluxanlarda zəiflik, immun sisteminin aşağı düşməsi, ağ ciyər iltihabının baş verməsi, pnevmaniya ağırlaşmaları olduğunu qeyd edib. Adı çəkilən virusa yoluxmamaları üçün qəzetimizin oxucularına bir sıra dəyərli tövsiyyələrini də verib: ”Yüksək hərarəti və öskürəyi olan insanlarla təmasda olmamaq, əllərini tez-tez sabunla yumaq və spirtlə tez-tez silmək, asqıranda və ya öskürəndə ağızı dəsmalla tutmaq, əli ağıza vurduqdan sonra gözə və ya buruna toxunmamaq, ictimai yerlərdə olduqdan sonra (avtobus, metro) əlləri spirtli dəsmalla silmək və s. lazımdır”

İbadulla müəllim mövsümü qriplə bağlı Səhiyyə Nazirliyinin tibb və qeyri-tibb müəssisələrində ciddi tədbirlər gördüyünü də diqqətimizə çatdırdı. Uşaq bağçaları, orta məktəblərin ciddi nəzarət altında olduğunu və ərazi bölgüsü üzrə lazımi tibbi xidmət göstərildiyini deyərək əhaliyə narahat olmamağı tövsiyə edib.

**Qabil ABDULLAYEV**

# Səhiyyə Nazirliyi epidemioloji vəziyyətə nəzarəti gücləndirib

**Azərbaycan Respublikası ilə həmsərhəd dövlətlərdə ötən ilin son aylarında epidemik qripin yayılması ilə əlaqədar ölkəmizdə bu xəstəliyə qarşı artıq 2 aydan çoxdur ki, geniş profilaktik tədbirlər həyata keçirilir. Hazırda Səhiyyə Nazirliyi bu məqsədlə həyata keçirilən tədbirlərin icrasını gücləndirib.**




Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlər çərçivəsində ağır formalı kəskin respirator xəstəliyə yoluxması şübhəli olanların müalicəsi, o cümlədən, hospitallaşdırılması üçün xüsusi palataların ayrılması, dərman ehtiyatının yaradılması, virusa yoluxması şübhəli olan xəstələrin laborator müayinəsinin aparılması, tibb müəssisələrində dezinfeksiya rejiminin gücləndirilməsi istiqamətində işlər görülüb.

Həyata keçirilən tədbirlər çərçivəsində, respublikanın şəhər və rayonlarında zəruri profilaktik, qabaqlayıcı tədbirlər həyata keçirilib. Respublikanın bütün sərhəd ərazilərində Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti və Fövqəladə Hallar Nazirliyi ilə işgüzar əməkdaşlıq yaradılıb. Sərhəd-keçid məntəqələrində müvafiq profilaktik tədbirlər görülmüş, xüsusi avadanlıq qurulmuş, gündəlik nəzarət təşkil edilmiş və aidiyyəti mütəxəssislərə zəruri metodiki yardım göstərilib.

Tibb işçilərinin xəstəliyə qarşı diqqətini və sayıqlığını artırmaq məqsədi ilə respublikanın bütün şəhər və rayonlarının tibb işçilərinə epidemik qrip xəstəliyi barədə təlimlər keçirilib.

İxtisaslaşdırılmış müəssisələrdə ağır kəskin respirator viruslu xəstələrin müayinə və müalicəsi üçün lazımi şərait yaradılmış, səhiyyə müəssisələri epidemik virusa qarşı dərman preparatları və tibbi ləvazimatlarla təchiz olunub. Yalnız yanvar ayı ərzində bu tibb müəssisələrində 100-dən artıq ağır formada kəskin respirator virus infeksiyalı şəxs müalicə olunaraq sağaldılıb.

PZR (Polimeras zəncirvari reaksiya avadanlığı) və digər müasir avadanlıqla təchiz edilmiş virusoloji laboratoriyalarda 200-dən artıq şübhəli xəstələrdən götürülmüş nümunələrin müayinəsi təşkil olunub. Laborator tədqiqatları nəticəsində A(H1N1) virusu aşkar edilməmiş, dövr edən viruslar arasında isə mövsümi qriplərdən biri olan A(H3N2) virusu üstünlük təşkil etdiyi müəyyən edilib.

Epidemioloji prosesə dinamik müşahidənin aparılması məqsədi ilə respublikanın iri şəhərlərində kəskin respirator virus infeksiya üzərində gündəlik monitorinq aparılır və nəticələr təhlil edilir. Mövsümlə əlaqədar xəstəliyin bir qədər artmasına baxmayaraq, onun səviyyəsi epidemioloji həddən aşağıdır.

Lakin buna baxmayaraq, dünyada və ələlxüsus bütün sərhədyanı ölkələrdə gərgin epidemioloji vəziyyətin davam etməsi və hətta daha da gərginləşməsi ölkəmiz üçün real təhlükə yaratmaqla əlavə profilaktik, müalicəvi və əksepidemik tədbirlərin gücləndirilməsini tələb edir.

Bu məqsədlə əlavə olaraq ağır kəskin respirator xəstələrin müalicəsi üçün nəzərdə tutulan müasir yüksək effektli dərman preparatları tibb müəssisələrinə çatdırılmış, tibb personalı üçün qoruyucu vasitələr, əhalinin maarifləndirilməsi üçün xüsusi təlimatlar göndərilmiş, dezinfeksiya rejimi gücləndirilib. Tətil günlərinin başlanması ilə əlaqədar bütün məktəblərdə profilaktik dezinfeksiya tədbirləri aparılır.

Qeyd edək ki, epidemioloji stabilliyin təmin edilməsində əhali əhəmiyyətli rol oynayır. Əhalidən bir daha xəstəliyin əlamətləri özünü büruzə verdiyi andan tibb müəssisəsinə müraciət etmək, xüsusi qoruyucu vasitələrdən istifadə etmək, şəxsi gigiyenaya riayət etmək xahiş olunur. İmmuniteti zəiflədən xroniki xəstəliklərdən əziyyət çəkən yaşlı insanlardan səhhətlərinə qarşı xüsusilə diqqətli olmaları tövsiyə olunur.

Nəzərə almaq lazımdır ki, epidemik qrip mövsümi qripdən daha ağır cərəyan edir. Hava-damcı yolu ilə yayılan virusun intoksikasiya simptomları – qusma, ishal, güclü baş ağrısı ilə başlayır, yüksək hərarət, tənəffüsün çətinləşməsi, tənginəfəsliklə müşahidə olunur.

Mövsümi qrip zamanı ağırlaşma 10-15 gün keçdikdən sonra baş verdiyi halda, epidemik virusda xəstəliyin 2-3-cü günlərində ağırlaşmalar müşahidə olunur. Həmçinin daxili orqanlar, xüsusən də ağ ciyər zədələnir.

Ümumiyyətlə, beynəlxalq təcrübə göstərir ki, mütləq, hətta coğrafi-iqlim parametrlərinə görə yüksək risk ərazisində yerləşən ölkələr, qripə qarşı kütləvi peyvənd tədbirləri keçirmirlər. Yayıla biləcək virusların qabaqcadan proqnozlaşdırılmasının mümkünsüzlüyü, həmçinin bu gün istehsal olunan vaksinlərin kifayət qədər effektli olmaması qripə qarşı kütləvi immunlaşdırma tədbirlərinin aparılmasının məqsədyönlü olmadığını göstərir.

# Azərbaycanda təhsil alan iranlı tələbələrin Elmi-Mədəni və İdman Birliyinin Bəyanatı

Biz, Azərbaycanda təhsil alan iranlı tələbələrin Elmi-mədəni və İdman Birliyi bildiririk ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecədən 26 il ötməsinə baxmayaraq, Sovet ordusunun Bakıda dinc əhaliyə qarşı törətdiyi dəhşətli qırğını heç bir zaman unutmayacağıq. Həmin gecə Ermənistanın işğalçı iddialarına qarşı çıxan qardaş Azərbaycan xalqı Bakının küçə və meydanlarına çıxaraq öz haqqını tələb edirdi.



Azərbaycan xalqının qəhrəman oğul və qızları bir nəfər kimi öz etiraz səsini qaldıraraq dinc vasitələrlə hüquqlarının qorunmasını istəyirdilər. Ancaq Sovet rəhbərliyinin birbaşa göstərişi ilə xalqın bu dinc mübarizəsinə qarşı yeridilən qoşun Bakıda misli görünməmiş qanlı faciəyə səbəb oldu. Belə ki, Sovet qoşunlarının törətdiyi qırğın nəticəsində Bakıda 134 dinc vətəndaş öldürüldü, 600-dən çox insan yaralandı, 800-dən çox adam isə haqsız yerə həbs edildi. Qətlə yetirilənlər arasında beş millətin nümayəndələri, o cümlədən uşaqlar, qocalar, qadınlar və əlillər də var idi.

Sovet qoşunlarının Azərbaycanın paytaxtı Bakı şəhərində törətdikləri bu qanlı faciə bəşəriyyətin bütün mütərəqqi xalqları tərəfindən də anılır və bu kimi halların bir daha təkrarlanmamasını istəyirlər.

Bəli, artıq 26 ildir ki, dünya, o cümlədən də İran xalqı qanlı 20 Yanvar faciəsini Azərbaycan xalqının Ümumxalq hüzn günü kimi qeyd edir. Biz bu münasibətlə müxtəlif tədbirlər, o cümlədən konfranslar, sərgilər təşkil etməklə Azərbaycana həmdərd olduğumuzu nümayiş etdiririk. Biz, iranlı tələbələrin Azərbaycandakı birliyi olaraq 20 Yanvar faciəsinin xatirəsini dərin ehtiramla yad edir və bəşəriyyətə qarşı törədilən hər növ bütün cinayətləri pisləyirik.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

# "2016-2020-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı" təsdiq edilib

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə "2016-2020-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı" təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, Tədbirlər Proqramının məqsədi hemofiliyalı xəstələrə göstərilən tibbi yardımın həcminin və keyfiyyətinin artırılması, hemofiliya nəticəsində əmələ gələn əlilliyin və ölüm hallarının azaldılmasıdır.

Proqramın məqsədi hemofiliyanın fəsadlarının diaqnostikasının, müalicəsinin və profilaktikasının təkmilləşdirilməsi, hemofiliya xəstəliyinə düçar olmuş şəxslərin ömürlərinin uzadılması və həyat keyfiyyətinin yaxşılaşdırılması, bu xəstəliyin müalicəsi və profilaktikası üzrə tibb mütəxəssislərinin hazırlanması və onların ixtisaslarının artırılmasıdır.

# Bakıda "Biz təhlükəli virusa birlikdə qalib gələcəyik" aksiyası keçiriləcək




Fevralın 3-dən 6-dək Azərbaycan-İsrail Beynəlxalq Tibb Mərkəzində bu mərkəzin "inCity.az" portalı ilə birlikdə təşkil etdiyi "Biz təhlükəli virusa birlikdə qalib gələcəyik" adlı respublika ödənişsiz aksiyası keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu aksiya Azərbaycanla həmsərhəd ölkələrdə təhlükəli donuz qripi virusunun yayılması ilə bağlıdır və vətəndaşların virusu vaxtında üzə çıxarılması və xəstəliyin müalicə üsulları haqqında məlumatlandırılmasına, habelə əhali arasında xəstəliyin yayılma riskinin azaldılmasına yönəldilib.

Aksiya çərçivəsində qripin profilaktikası üzrə treninqlər nəzərdə tutulub. Onları İsrail, Fransa və başqa ölkələrin yüksək ixtisaslı epidemioloqları keçirəcəklər.

# Səhiyyə ilə bağlı yeni qanun layihələri hazırlanır

Yanvarın 28-də Milli Məclisin səhiyyə komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda əvvəlcə 2015-ci il payız sessiyası dövründə görülən işlər haqqında hesabat dinlənilib. Sonra 2016-cı il yaz sessiyasının qanunvericilik işləri planı müzakirə edilib.

Komitə sədri Əhliman Əmiraslanov deyib ki, hazırda "Reproduktiv sağlamlıq haqqında" və "Psixoloji yardım haqqında" yeni qanun layihələri hazırlanır. Hər iki layihə ilə bağlı müvafiq iş aparılır və sənədlər bu il parlamentdə müzakirəyə çıxarılacaq.

Əhliman Əmiraslanov "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsində əskini tapacaq bəzi məsələlərin müxtəlif əlaqədar qurumlarla da razılaşdırıldığını söyləyib. Bildirib ki, yaz sessiyası dövründə icbari tibbi sığorta, dərman bazarındakı vəziyyət və səhiyyə sahəsində digər müxtəlif aktual məsələlərə dair dinləmələr keçiriləcək.

İclasda deputatlar bəzi hüquqi sənədlərə dəyişikliklər edilməsi zərurətindən danışıb, müvafiq təkliflər səsləndiriblər. İcbari tibbi sığortanın tətbiqindən sonra bu sahənin daha da inkişaf edəcəyi bildirilib.

# "İnsan gərək mədəsinin üçdə birini yemək, üçdə birini su və üçdə birini nəfəs almaq üçün qərar versin"

**Sağlam həyat sürmək üçün zəruri olan məsələlərdən biri də sağlam qidalanmadır. Araşdırmalar göstərir ki, əksər xəstəliklər qeyri-düzgün qidalanmanın nəticəsində yaranır. Nə ilə qidalanmağımıza diqqət etdiyimiz kimi, necə qidalanmağımıza da diqqət etmək sağlamlığımız üçün mühüm şərtdir.**

Həzrət Peyğəmbər (s) buyurur: "Hər kim qarnının, dilinin şərindən qoruna bilsə, bütün pisliklərdən qorunar".

Həzrət Rəsuli-Əkrəm (s) başqa yerdə buyurur: "Ümmətimin ən çox cəhənnəmə düşməsinə səbəb olan şey - qarnıdır".

Həzrət Peyğəmbər (s) buyurur: "Adəm övladı qarın kimi heç bir pis qabı doldurmamışdır. Adəm övladına onu sağ saxlayacaq qədər yeməyi kifayətdir. Əgər bununla kifayətlənməzsə və çox yeyərsə, mədəsinin üçdə birini yeməyə, üçdə birini suya və üçdə birini nəfəs almaq üçün qərar versin".

Həzrət Peyğəmbər (s) buyurur: "Sizlərin Allah yanında heysiyyət cəhətdən ən yaxşısı - çoxlu aclıq çəkənləriniz, əməlləri və Allahın yaratdıqları haqqında təfəkkür edənlərinizdir. Sizlərin Allah yanında ən düşmən olanınız o kəsdir ki, çox yatar və çox içər".

Həzrət Peyğəmbər (s) buyurur: "Qəlblərinizi çox yeyərək və içərək öldürməyin, həqiqətən də ürək torpaq kimidir, əgər çox su verilərsə, ölər".

Həzrət Peyğəmbər (s) buyurur: "Sizin Allah yanında ən çox düşmən olanınız o kəsdir ki, o qədər yesin ki, qarnı dolsun".

Həzrət Peyğəmbər (s) buyurur: "Səma mələkutunun sirləri qarnı dolu olan kəsin qəlbinə daxil olmaz".

Loğman öz oğluna belə tövsiyə verir: "Ey oğlum! O zaman ki, qarın dolar fikir qüvvəsi yatar. Hikmət lal olar və bədən üzvləri ibadətdən dayanarlar".

Həzrət Peyğəmbər (s) buyurur: "Mömininin qəlbi üçün çox yeməkdən ən böyük ziyan yoxdur. Çox yemək iki şeyə səbəb olar: qəlb qəsavətinə, şəhvətə. Aclıq - ruhun qidası, qəlbin təamı və bədənin sağlamlığıdır".

Həzrət Peyğəmbər (s) buyurur: "Nəfsinizlə aclıq və susuzluqla cihad edin. Onun əcr və savabı o kəsin əcri kimidir ki, Allah yolunda cihad edər. Allah yanında aclıq və susuzluqdan sevimli əməl yoxdur".

Həzrət Peyğəmbər (s) buyurur: "Az şey yemək ibadətdir".

**Sağlam qidalanma – sağlam həyat deməkdir**

Sağlam qidalanmanın bəzi əsas şərtlərini nəzərinizə çatdırırıq.

1. İnsan gün ərzində orta hesabla 2 litrə qədər adi su qəbul etməlidir. Əsasən səhər yataqdan qalxarkən acqarına su içmək məsləhət görülür. Bu zaman su içmək insanı böyrək duzlarından və bağırsaq şlaklarından azad edir.

2. Zehni və fiziki fəaliyyət zamanı, yorğun vəziyyətlərdə, qızdırma halında qida qəbul etməyin. Bu hallarda qidadan imtina etmək daha faydalıdır.

3. Yalnız aclıq hiss olunduqda qidalanmaq lazımdır. Hər qidalanmadan 15-20 dəqiqə əvvəl bir stəkan (200 ml) su için.

4. Yeməkdən dərhal əvvəl, yemək anında və yeməkdən dərhal sonra su içməyin. Su 10 dəqiqə ərzində mədəni tərk edir və özü ilə birlikdə mədə şirəsini də yuyub aparır. Nəticədə mədədə həzm prosesi çətinləşir.

5. Çox soyuq və çox isti qidalardan və içəcəklərdən istifadə etməyin.

6. Əsasən çiy və təbii qidalardan



istifadə edin. Meyvə və tərəvəzləri bişirilməmiş halda qəbul edin. Müxtəlif konservantlar, boyaq maddələri, dadvericilər və s. qatılmış qidalardan çəkinin.

7. Xörəkləri qarışdırmayın. Bir neçə qidanı eyni anda istifadə etmək məsləhət görülmür.

8. Səhər yeməyinə şirəli meyvələrlə başlayın. Qış vaxtı quru meyvələrə üstünlük verin.

9. Qidanı tam çeynəməmiş udmayın. Əks halda həzm çətinləşir və qidanın həzminə böyük enerji sərf olunur.

10. Çox yeməyin. Süfrədən doymamış halda durun. Az, amma səmərəli qidalanın. Tibb elmi sübut edir ki, bir çox xəstəliklərin səbəbi – çox yeməkdir.

# Dodaq quruluğu və uçuğun müalicəsində təbii üsullar

**Dodaqların quruması və infeksiyalardan qaynaqlanan dodaq uçuqları (Hermes İmplex) sizi narahat edir?**

Bəs uçuq nədir?



Uçuq–Herpes Simplex dediyimiz virusun törətdiyi dəri xəstəliyidir. Bu virus bütün insanlarda var və insan anadan olanda, əsasən doğum zamanı və ya ananın ilk öpüşü ilə insana yoluxur. Və həyat boyu insanda qalır. İnsanın bütün həyatı boyu bu virus, yoluxduğu yerlə onurğa beyni arasında gedib gəlir. Amma insanın immun sistemi xəstəlik əlamətlərinin meydana gəlməsini əngəlləyir. Amma bəzi hallarda immun sistemi virusun öhdəsindən gələ bilmir və dodaqla birgə insanın üzü uçuqlayır.

Belə hallarda əvvəlcə uçuğun çıxacağı yerdə qaşıntı olur və daha sonra içərisi şəffaf su ilə dolu qabarcıqlar əmələ gəlir. Dodaq uçuqlarına müsbət təsir edən təbii üsullar haqqında bəzi məlumatlar aşağıdakılardır:

### Qarğıdalı nişastası

1 qaşıq qarğıdalı nişastası ilə 1 qaşıq içməli suyu qarışdırıb məcun halına gətirin. Yatmadan əvvəl uçuğa sürtün. Yuxudan oyanarkən isə ehtiyatla yaxalayın.

### Buz



Uçuq ağrıyla yanaşı, dodaqda yanığa da səbəb ola bilər. Buz bağlamaq–uçuğun üzərindəki dərinin həm nəmlənməsi, həm də yanmasının keçməsini təmin edir.

### Yeni diş fırçası



Diş fırçası uçuq viruslarının daşınması üçün ideal şərait yaradır. Uçuq yarandıqda təmiz bir diş fırçasına keçin. Uçuq keçdikdən sonra, yenidən fırçanızı dəyişdirməyə laqeydlik etməyin.

### Aloe



1 çay qaşığı aloe gelini birbaşa uçuğun üstünə sürtün.

### Ekinezya



Ekinezya bitkisi immunitet sistemini gücləndirəcək və uçuq çıxmasına qarşı bədəninizi möhkəmləndirəcək.

### Nanə yağı



Uçuğu su ilə təmizləyin. Sonra pambığı əvvəl suya, sonra da nanə yağına batırıb uçuğa sürtün. Gündə 2 dəfə tətbiq etməyiniz kifayətdir.

### Vanil



Vanil tozu uçuğa səbəb olan virusun çoxalmasının qarşısını alır. Pambıqlı çubuğun ucuna sürtdüyünüz vanili birbaşa uçuğa sürtün və 1–2 dəqiqə gözləyin. Bunu gündə 4 dəfə tətbiq edə bilərsiniz.

# Danimarkada və İsveçdə Zika virusuna yoluxma halları aşkar olunub

İsveç KİV–lərində bu ölkədə və Danimarkada insanların Zika virusuna ilk dəfə yoluxması hallarının aşkar olunması haqqında məlumat yer alıb. Ekspertlər qeyd edirlər ki, İsveç vətəndaşının yoluxması ağır deyil və onun müalicəsinə artıq başlanılıb.




Danimarkada da test keçiriləndən sonra həmin virusa yoluxma halı aşkar olunub. Xəstənin adı açıqlanmır, lakin Orxus şəhərindəki hospitalda müalicə aldığı bildirilir. Bundan əvvəl həmin şəxs Zika virusunun geniş yayıldığı Latın Amerikasında olub.

Alimlər qeyd edirlər ki, Zika virusu yüksək hərarətə, konyunktivitə, başda və oynaqlarda ağrılara, iltihabi proseslərə, bəzi hallarda isə ürək bulanması, mədə pozulmasına və ağrısına səbəb olur.

Virusun daşıyıcısı “Aedes aegypti” ağcaqanaddır. Məlumat var ki, hamiləlik dövründə virusa yoluxma uşaqda mikrosefaliyaya səbəb olur. Bu xəstəlik kəllə ölçüsünün xeyli azalması, əqli gerilik və başqa əlamətlərlə müşayiət olunur.

Qeyd edək ki, xəstəlik bundan əvvəl Asiya, Afrika, Cənubi və Şimali Amerika, Sakit okean regionlarında qeydə alınıb. Hazırda Latın Amerikası ölkələrinin hökumətləri virusun yayılmasının qarşısını almaq üçün mübarizəyə başlayıb.

### Etibarsız sayılır

İmanova Dilarə Rəhman qızına 2010-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən həkim laborant ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu tərəfindən 2014-cü ildə Hüseynova Firuzə Akif qızına verilmiş “Səhiyyənin təşkili ” kurs vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Avstraliyada 12 adi təcili yardım maşınını əvəz edə bilən “təcili yardım avtobusu” yaradılıb

Avstraliyada 12 adi təcili yardım maşınını əvəz edə bilən təcili yardım avtobusu yaradılıb.




AZƏRTAC health–ua.org saytına istinadla xəbər verir ki, Adelaida ştatındakı (Avstraliya) Royyal Hospital klinikasının həkimləri dünyada ilk “təcili yardım avtobusu”nun xidmətlərindən istifadə edirlər. Bu qeyri–adi yeniliyin təqdimat mərasimində Adelaidanın yüzlərlə sakini, habelə Avstraliyanın səhiyyə naziri Cek Snellinq iştirak edib.

Uzunluğu 15 metrə yaxın olan avtobus xüsusi avadanlıqla təchiz edilib. Burada eyni vaxtda 12 pasiyentə (6 nəfər əyləşə bilən və daha 6 nəfər uzanıqlı vəziyyətdə xəstəyə) tibbi yardım göstərmək mümkündür. Avtobusun içərisində iki həkim və tibbi heyətin üçüncü üzvü – həm feldşer, həm də sürücü vəzifəsini yerinə yetirən şəxs üçün yerlər nəzərdə tutulub. Müasir tibbi texnika ilə təchiz edilmiş bu nəhəng təcili yardım maşınında defibrillyatorlar və mobil USM (ultrasəs müayinəsi) aparatları quraşdırılıb.

Bu avtobus eyni vaxtda zərər çəkmiş çoxsaylı insanlara təxirəsalınmaz tibbi yardım göstərilməsi hallarında: ağır yol-nəqliyyat hadisələri, texnogen qəzalar, o cümlədən kol–koslu və alçaq ağacların çox olduğu ərazilərdə yanğınlar zamanı tətbiq edilmək üçün nəzərdə tutulur. Avstraliyada tez–tez baş verən bu cür yanğınlar insan üçün çox təhlükəlidir.

Royyal Hospital klinikasının həkimlərinin sözlərinə görə, mühüm idman matçları, konsertlər və minlərlə tamaşaçı cəlb edə bilən digər kütləvi tədbirlər keçirilən günlərdə bu qeyr–adi avtobus stadionların və idman saraylarının yaxınlığında növbə çəkəcək.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 290